# Zəlzələ

*Siz də zəlzələni hiss edirsiniz?*
*Dağılır sükutu xatirələrin!...*
*Olmaya, qorxaraq siz gedirsiniz?*
*Barı xəyalıma təsəlli verin...*

*Yayılır köksümün qaranlığından*
*Ümidli qığılcım bütün əzama...*
*Hansısa küçənin toranlığında*
*Səslənir vidanız alın yazıma...*

*Məxməri küləklər əsir bu yerdə,*
*Kiriyir torpağın naləsi, ahı...*
*Elə hey axışan al kölgələrdə*
*Dolanır qəlbimin şirin günahı...*

*Ölənlərin belə, - demişdiniz siz, -*
*Lazımdır arabir nəbzinə baxmaq.*
*Budur, əlimdədir ağ biləyiniz, -*
*Döyünür, qırılır, dayanmır ancaq...*

*Dağılır sükutu xatirələrin,*
*Bürüyür şəhəri çığırtısıyla...*
*Barı xəyalıma təsəlli verin*
*Sizdəki həqiqət parıltısından...*

*Olmaya, məni də tək qoyursunuz,*
*Olmaya, qorxaraq siz gedirsiniz?*
*Çırpınan qəlbimi heç duyursunuz?*
*Siz də zəlzələni hiss edirsiniz?...*

**Firudin HƏMİDLİ**

Xalq qəzeti.- 2023.- 5 iyul. S. 8.